*AMEA Filologiya və sənətşünaslıq, 2025, № 2* *ISSN 2663-4368*
*Səhifə: 31-35* *E-ISSN 2709-2699*
*https://doi.org/10.59849/2663-4368.2025.2.31*

# Süleyman Sani Axundovun dramaturgiyası

**Aygün Bağırlı**
Filologiya üzrə fəlsəfə doktoru, dosent
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu
ORCID ID: https://orcid.org/0000-0001-9887-7713

**Annotasiya:** Süleyman Sani Axundov ilk qələm təcrübələrini nəzərə almasaq, professional yaradıcılığa dram janrı ilə başlamışdır. Onun dramaturgiyasında əsas iki xətt leytmotiv təşkil edir. Birincisi, cəhalətin, avamlığın, savadsızlıq və nadanlığın göstərilməsi, tənqid edilməsi idisə, ikincisi, iki fərqli ideologiyanın, fərqli formasiyanın, keçmişlə çağının, yeni ilə köhnənin mübarizəsində üz-üzə qalan nəsillərin, "atalar və oğullar"ın faciəsinin əksi idi. Müəllif "Dibdat bəy" (1906) və "Türk birliyi" (1906), "Qaranlıqdan işığa" (1921), "Laçın yuvası" (1921), "Şeytan" (1922), "Molla Nəsrəddin Bakıda" (1921), "Eşq və intiqam" (1922), "Yeni həyat" (1923), "Şahsənəm və Gülpəri" (1921), "Çərxi-fələk" (1921), "İki yol" (1922), "Bir eşqin nəticəsi" (1922), "Doğruçular klubu" (1923) pyeslərində cahillik və nadanlıqla mübarizə aparmış dövrünün problemlərini, müasirlərinin elm və təhsilə, inkişafa olan münasibətini əks etdirmişdir.
**Açar sözlər**: Süleyman Sani Axundov, dramaturgiya, dram janrı, maarifçi realizm

**Məqalə tarixçəsi:** göndərilib – 05.11.2025; qəbul edilib – 09.12.2025

# The dramaturgy of Suleyman Sani Akhundov

**Aygun Bagirli**

**Abstarct:** Suleyman Sani Akhundov started his professional creativity in the drama genre, if we take no notice his first experiences with the pen. The main motif in his dramaturgy consists of two main lines. The first was an indicator and criticism of ignorance, stupidity, lack of knowledge; the second was a reflection of the tragedy of generations, "fathers and sons" facing each other in the struggle of two different ideologies, different formations, the past and the present, the new and the old. The author in his works such as "Dibdat bey" (1906) and "Turkish Unity" (1906), "From Darkness to Light" ( 1921), "Falcon's Nest" (1921), "The Devil" (1922), "Molla Nasreddin in Baku" (1921), "Love and Revenge" (1922), "New life" (1923), "Shahsenem and Gulperi" (1921), "Wheel of Fortune" (1921), "Two Ways" (1922), "The Result of the Love" (1922) and "The Club of the Honest Ones" (1923) fought against ignorance and stupidity and dealt with the problems of his period and his contemporaries' perspective on science, education and development.
**Keywords:** S.S.Akhundov, dramaturgy, dram genre, play, enlightened realism

**Article history:** received – 05.11.2025; accepted – 09.12.2025

## Giriş / *Introduction*

Nasir, dramaturq, pedaqoq, ictimai xadim Süleyman Sani Axundov Azərbaycan ədəbiyyatında maarifçi realizm cərəyanının örnək nümunələrini yaradan, uşaq ədəbiyyatının inkişafına

və formalaşmasına xidmət edən istedadlı və maarifpərvər yazıçıdır. Süleyman Sani Axundov ilk qələm təcrübələrini nəzərə almasaq, professional yaradıcılığa dram janrı ilə başlamışdır. Onun dramaturgiyasında əsas iki xətt leytmotiv təşkil edir. Birincisi, cəhalətin, avamlığın, savadsızlıq və nadanlığın göstərilməsi, tənqid edilməsi idisə, ikincisi, iki fərqli ideologiyanın, fərqli formasiyanın, keçmişlə çağının, yeni ilə köhnənin mübarizəsində üz-üzə qalan nəsillərin, "atalar və oğullar"ın faciəsinin əksi idi.

Ustad dramaturq Mirzə Fətəli Axundzadənin "Hacı Qara" əsərinin təsiri ilə yazdığı beşpərdəli "Tamahkar" (1899) pyesində əsas qəhrəman Hacı Muradın simasında xəsisliyi, tamahkarlığı, acgözlüyü gülüş obyektinə çevirmişdir. Varını-varidatını xəsisliklə sandığa yığıb, xərcləməyə qıymayan, yeganə övladını – 18 yaşlı Gülnazı pul müqabilində 55 yaşlı xəsis mülkədar Məhərrəm bəylə evləndirməyə hazırlaşan Hacı Murad Süleyman Sani üçün hələ də müəllimi Mirzə Fətəli Axundzadənin, yaralı yerlərini göstərib, amma tam müalicə edə bilmədiyi cəmiyyətin nümayəndəsi idi. S.S.Axundov "Tamahkar" pyesi ilə bir daha cəmiyyətin xəstə və ağrılı yerlərinə işıq salırdı. Hacı Muradın xəsisliyi xəstəlik dərəcəsində idi. Evində çalışan işçilərə, doğma övladına, borc üçün qapısına gələn bacısına doyunca çörək yeməyə izn verməyən Hacı Murad qızıl və pullarını saxladığı mücrünü torpağı qazıb gizləyir və axırda da özünə yox, ömrü boyu həyatində işlətdiyi qulluqçularına qismət olur. Hacı Murad əsərdə bir tip olaraq tək deyil, 55 yaşlı Məhərrəm bəy də eyni ilə onun kimi tamahkar və mənfəətpərəstdir. O, Hacı Muradın var-dövlətini ələ keçirmək üçün onun 18 yaşlı qızı Gülzarla evlənməyə hazırlaşır. Gülzarın öz sevdiyi İmranla qaçıb getdiyini eşidəndə isə pulların əlindən çıxmasına heyfslənir. Süleyman Sani Axundov nəfsin, acgözlüyün gətirib çıxardığı acı və gülünc aqibəti göstərmək istəmişdir.

Müəllif "Dibdat bəy" (1906) və "Türk birliyi" (1906) adlı kiçikhəcmli pyeslərində ictimai-siyasi mövzuya toxunmuş, rüşvətlə, saxta yollarla "dibdat" (deputat – A.B.) seçilmək istəyənləri tənqid hədəfinə çevirmişdir. Dramaturq saxtakarlıq edənləri öz dilləri ilə ifşa edir: Rüstəm bəy: Ona-buna mən ölüm demişəm. Cürbəcür hiylə qurmuşam, axırı özümü onun seçki qutusuna nəzarətçi təyin etdirmişəm [1, s. 55].

Sonda isə məlum olur ki, hiylə və fəndgirliklərindən fərəhlə danışanlar həm də yalançıdırlar, onlar heç Səfdərqulu bəyi vəkil seçdirə də bilməmişlər. İşin üstü açılanda isə, yaxşı ki, deputat olmamısan, çox xətalı işdir, həmişə padşah hüzurunda olursan, sözünə-söhbətinə fikir verməlisən, birdən artıq-əskik söz söylədin, üstə gəl, Peterburqun soyuğuna necə tab gətirəcəksən, könlün qovurma, plov, küftə istəyəndə nə edəcəksən, – deyib, onu sakitləşdirirlər.

Dramaturq "Türk birliyi" adlı birpərdəli əsərdə isə bir qədər də irəli gedib Dövlət Dumasında olan təmsilçinin hansı keyfiyyətlərə sahib olmasını açıqlayır. Ayrı-ayrı obrazların dili ilə yarızarafat, yarıgerçək millət vəkilinin portretini cizgiləyir. Bu portretdən görünür ki, deputat qanunları bilməli, natiqlik bacarığı olmalı, başqa dillərdə də danışmağı bacarmalı, "vətənin xeyrini mühafizə etməli"dir.

Firidun bəyin dili ilə: – Siz hələ qəflət yuxusundasınız, ayılmamısınız…İndi hürriyyət zamanıdır. İndi insan mülk-maaş ilə yox, elm, ədəblə şərəf qazanır, [1, s. 63] – deyib millət vəkili seçiləcək şəxsdə bilik, ədəb-ərkan və vicdanın olmasını vacib şərt sayır.

"Qaranlıqdan işığa" (1921) birpərdəli pyesi maraqlı ideyaya malikdir. Süleyman Sani Axundov bu əsərində də maarifçi-realist kimi görünür. Əsərdəki hadisələr türkün, ərəbin, farsın, çinlinin, hindlinin məskən tutduğu qaranlıq mağarada başlayır. Görünür, müəllif müxtəlif millətlərin nümayəndələrinin timsalında problemin bütün bəşəriyyətə aid olduğunu demək istəmişdir. Türk olan Oğuzun oğlu Uluğ zülmət əhlini qəflətdən ayılmağa, haqlarını tanımağa, zülmdən xilas olmağa, işıqlı dünyayla tanışlığa çağırır. Buna etiraz edən yaşlılar – məgər burdan başqa da dünya var? – deyib onu dəli və sərsəm adlandırırlar.

"Uluğ: – Ey mənə cünun namı verən əhli-zülmət! Mən söylədiyim əfsanə deyil, həqiqətdir. Mən o işıqlı dünyanı bütün vücudumla hiss edirəm, görürəm, eşidirəm. Sizlər isə paslanmış, qabarlaşmış əqlinizlə qüvvətdən düşmüş, zəifləşmiş hissinizlə onu dərk edə bilməyirsiniz.

… Görmürsünüz, çünki korsunuz. Ey əhli-zülmət! Mən Oğuz oğluna inanınız. Bu divlər

tərəfindən hörülmüş sədləri yıxıb, bu qayaları dəlib deşərəm, sizi bu zülmətdən çıxardaram" [1, s. 120].

Ancaq yaşlılardan fərqli olaraq, gənclər Uluğa inanıb onun qaldırdığı bayrağın altında toplaşır və qarşılarına çıxan orduyla, qoşunla mübarizə aparır, işıqla onların arasında sədd olan qapıları, divarları, qayaları uçurub, aydınlığı və azadlığı əldə edirlər. Sənətkarlıq baxımından çox da mükəmməl olmayan bu pyes ideyası və yazıçının məqsəd və hədəfini ifadə etmək baxımından əhəmiyyətlidir. Aydınlığa çıxmaq, zülməti işıqlandırmaq üçün üç amilin vacibliyini vurğulayan müəllif Uluğun dili ilə deyir:

"– Yoldaşlar, şübhəyə düşməyiniz. Bizi qaranlıqdan işıqlığa üç şey çıxarar. Qüvvət, zəhmət, bilik. İkisini əmələ gətirmişik, qalıbdır biri" [1, s. 123].

Nəhayət, üçüncü maneəni elm, bilik vasitəsi ilə aşıb əbədi azadlığa nail olurlar. Əsərdə hamını çevrəsinə yığan, azadlığı, işığı vəd edən, hədəfə çatmaqda liderlik edən qəhrəmanın məhz türk Uluğ olması da təqdir olunası məqamdır.

Yazıçının "Laçın yuvası" (1921) adlı üçpərdəli pyesi yaradıcılığında mühüm yer tutan əsərlərdəndir. Əsərdə güclü dramatizm və gərgin səhnələrlə rastlaşırıq. İki zidd qütbün, müxtəlif baxışların toqquşduğu, atalar və oğulların üz-üzə qaldığı bu əsər əgər sovet dövrü ədəbiyyatşünaslığında başqa aspektdən təhlil olunub, Əmiraslan ağa, Mehrəli bəy, Səlim bəy, Muxtar bəy bolşeviklərə qarşı çıxdıqları, onlara təslim olmadıqları üçün tənqid olunub, mənfi obraz kimi səciyyələndirilirdilərsə, bu gün biz bu əsərə başqa bir rakursdan nəzər salır, əksinə, Əmiraslan ağanı doğma yurdunu, ata-baba ocağını sona qədər qorumağa çalışan, hətta yeganə övladı Cahangiri belə bu yolda öldürməyə razı olan bir bəy kimi görürük. O, məğrurluqla babalarından miras qalmış "Laçın yuvası"nın heç vaxt heç kimə təslim olmadığını, bolşeviklərə də qucaq açmayacağını söyləyir:

– "Ümidvaram ki, sizlərin köməkliyi ilə babalarımızın yurdunu düşməndən müdafiə edə billəm. Qırmızı Ordudan əsla xof etməyin. O, nizami qoşun deyil, əlsiz-ayaqsız, aciz, kasıbkusublardan toplanmış dəstədir. Bizim igid dəliqanlıların müqabilində əsla durmazlar, fəqət səy və qeyrət lazımdır. Siz bu gündən işə şüru ediniz. Dəstələr toplayınız, ləvazimat cəm ediniz. Kəndliləri hər vasitə ilə olmuş-olursa öz tərəfinizə çəkiniz" [1, s. 74].

Amma Əmiraslan ağa nə qədər dirənib mübarizə aparsa da, "Laçın yuvası" oğlu Cahangirin başçılıq etdiyi bolşeviklər dəstəsi tərəfindən ələ keçirilir. Bununla barışmayan Əmiraslan ağa intihar edir. Bu acınacaqlı durum bir ailənin faciəsi deyildi, bir xalqın faciəsi, bir epoxanın çöküşü idi. Təsadüfi deyildi ki, əsərin sonunda Cahangirin nişanlısı, Əmiraslan ağanın qardaşı qızı Pəricahan xanım – Cahangir, Cahangir! Şan-şöhrətli xanədanını viran etdin, gəl tamaşaya, – deyə fəryad edir.

Bu, həqiqətən, bir xanədanlığın məhv olması idi.

Əsərdə Yaşıl orman, Keçi dağı, Uçurum dərəsi, Kollu dərə, Qayadibi, Güllücə və Kötüklü kəndləri kimi yer adlarının çəkilməsi, xatırlanması Qarabağ toponimlərinin öyrənilməsi baxımından bu gün xüsusi əhəmiyyət kəsb edir. Eyni zamanda, qeyd edək ki, əsərdəki obrazların əksəriyyətini müəllif özü şəxsən tanıyırdı. Ümumiyyətlə, Süleyman Sani xalq həyatına, onun həyat və yaşam tərzinə, ictimai proseslərə yaxından bələd idi, bunun bir səbəbi kənd mühitində yaşaması və böyüməsi idisə, bir səbəbi də Seminariyanı bitirəndən sonra müəyyən vaxtlarda Şuşada, xalq içində maarifləndirmə işləri aparanda artıq bir ziyalı, yaradıcı insan kimi apardığı müşahidələr idi. Bütün bunlar onun yaradıcılığına bir təbiilik və səmimilik gətirirdi. Qeyd edək ki, Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda "Laçın yuvası" pyesinin altı nüsxəsi saxlanılır, bunlardan biri dörd, qalanları üçpərdəlidir. Bu fərqli nüsxələr göstərir ki, müəllif əsər üzərində dəfələrlə yaradıcılıq işləri aparmışdır [5, s. 156].

"Şeytan" (1922) əsərində yazıçı şeytanın (təbii ki, şeytan və şər xislətli insanları nəzərdə tuturdu) insanlar, hətta ölkələr, xalqlar arasında ədavət yaratdığını, tökülən qanlardan, savaşlardan həzz aldığını diqqətə çəkirdi. Əsərdə firavanlıqdan, insanlar arasındakı barışdan narahat olan şeytan qapı-qapı gəzir, hər vəchlə kin-küdurət, həsəd toxumları səpir, qəlblərdə şübhə oyadır. İnsanlara əkin alətlərinin yerinə silahlar, nizə və xəncərlər düzəltməyi tövsiyə edir.

"Aslan: Yoldaş, bizim torpaq azadə bir yerdir. Hər kəs nəyə sitayiş edirsə etsin. Burada din, məzhəb üstə qovğa yoxdur, müsəlman,

xristian, bütpərəst, atəşpərəst, hamısı insandır, bizə qardaşdır.

Şeytan: Pəh-pəh, nə gözəl məslək! Ey azərbaycanlılar, mən səyyaham, dünyanı seyr edərək bura gəldim, belə səadətlə yaşayan insanlar görmədim. Siz çox bəxtiyarsınız… Əfsus ki… qonşu düşmənləriniz bunu puç edəcəklər…

Teymur: Kimlər?

Şeytan: Gürcülər ilə ermənilər.

Aslan: Səhv edirsən, yoldaş, onlar bizim dostlarımızdır. Köhnə ədavət, köhnə hökumətlə getdi.

Şeytan: Ha-ha-ha. Ey sadədil azərbaycanlılar! Siz qəflətdəsiniz, ermənilər, gürcülər gecə-gündüz yatmayıb yeni hərb üçün silah hazırlayırlar. İntiqam, intiqam deyərək, müharibə üçün plan çəkirlər. İndi burada siz nə qayırırsınız?

Aslan: Kəndli qardaşlarımız üçün əkin aləti qayırırıq.

Şeytan: Bu işləri buraxınız, gecə-gündüz siz də onlar kimi qılınclar, xəncərlər qayırınız, fürsəti fövtə verən aqil deyil, divanədir. Keçmişinizi yada salın. Siz eyş-işrətə məşğul olduqda, onlar top, tüfəng yığıb hazırlaşırdılar" [1, s. 167].

Aslanla Şeytanın dialoqunda diqqətçəkən bir məqam da var. Bu dialoqdan görürük ki, hələ ötən əsrin əvvəllərində Azərbaycanda bütün dinlərə və millətlərə humanist və tolerant münasibət olmuşdur. İnsanlar arasında onların dini dünyagörüşünə görə ayrıseçkilik olmadığının şahidi oluruq ki, bu da ölkəmizin sahib olduğu milli-mənəvi dəyərlərin göstəricisidir.

"Molla Nəsrəddin Bakıda" (1921) pyesi Cəlil Məmmədquluzadənin Təbrizdən Bakıya qayıtması münasibəti ilə yazılmışdır. Süleyman Sani  böyük ehtiram bəslədiyi müasirinin, qələm dostunun, onun ideyalarının təbliği məqsədi ilə yazdığı bu əsərdə Molla Nəsrəddinin timsalında ilk dəfə  Mirzə Cəlilin bədii obrazını yaratmışdır.

Beşpərdəli "Eşq və intiqam" (1922) əsərində iki ailənin münasibətləri fonunda cəmiyyətdəki nöqsanlar, insanların xoşbəxtliyinə əngəl olan adət-ənənələr, böyük yalanlardan doğan bəlalar, qan düşmənçiliyindən törəyən münasibətlər tənqid olunur.

"Yeni həyat" (1923) pyesində isə müəllif atalarla oğulların, yeniliyə, təhsilə can atan övladlarla bu yeniliyi qəbul etməyən atalar arasındakı mübarizədən bəhs edir. Arvad "çinatdel", oğul "komsomol", qız "pənirkə" (pioner – A.B.) – deyib, ailəsinin bu yeni statusları ilə, özünün düşdüyü vəziyyətlə barışmayan usta İmamverdinin durumunu əks etdirir.

Dramaturq adıçəkilən pyeslərdən başqa "Şahsənəm və Gülpəri" (1921), "Çərxi-fələk" (1921), "İki yol" (1922), "Bir eşqin nəticəsi" (1922), "Doğruçular klubu" (1923) kimi dram əsərləri də yazmışdır ki, bunların da mövzusu əsasən maarifçiliyin, yeniliyin, avamlıq və cəhalətlə mübarizənin təbliği idi.

Süleyman Sani Axundov həm nasir, həm dramaturq, həm pedaqoq kimi dövrünün aparıcı şəxsiyyəti olmuş, uşaqların, gənc nəslin, ümumilikdə cəmiyyətin maariflənməsi üçün misilsiz xidmətlər göstərmişdir. O, tələbələri, müasirləri və oxucularının yaddaşında fədakar müəllim, xeyirxah insan və sevimli yazıçı kimi qala bilmişdir.

Ədibin həyatı, şəxsiyyəti, yaradıcılığı və pedaqoji görüşləri haqqında Abdulla Şaiq, Nəriman Nərimanov, Mir Cəlal Paşayev, Həmid Araslı, Əli Sultanlı, Cəfər Xəndan, Cəfər Cəfərov, Hənəfi Zeynallı, Abbas Zamanov, Məmməd Cəfər Cəfərov, Məmməd Arif Dadaşzadə, Kamal Talıbzadə, Yaşar Qarayev, Əziz Mirəhmədov, Cənnət Nağıyeva, İsa Həbibbəyli kimi görkəmli alimlər və şəxsiyyətlər dəyərli fikirlər söyləmişlər. Məsud Əlioğlu 1956-cı ildə "Süleyman Sani Axundov" (6) adlı kitabça nəşr etdirmişdir. Ədəbiyyatşünas alim Nadir Vəlixanov isə arxiv materialları əsasında yazıçının əhatəli elmi bioqrafiyasını hazırlamış, yaradıcılığı haqqında da təhlillər aparmışdır [3; 4; 5].  Filologiya üzrə fəlsəfə doktoru Könül Nəhmətova "Qaraca qız"ın taleyi" [2] kitabında adı çəkilən əsərin üç müxtəlif variantını şərh və izahlarla təqdim etmişdir. "Azərbaycan ədəbiyyatı tarixi" kitablarında və "Uşaq ədəbiyyatı" dərsliklərində Mir Cəlal Paşayev, Firidun Hüseynov, Qara Namazov, Zahid Xəlil, Fizuli Əsgərli və Bilal Həsənli yazıçı haqqında portret oçerk yazmışlar.

Yazıçının əsərləri öz sağlığında "Dəbistan", "Məktəb", "Şərq qapısı" kimi jurnallarda, "Zarafat" (1927), "Qaraca qız" (1934), "Seçilmiş əsərləri" (1936) kimi kitablarda çap olunmuşdur. Sonralar əsərləri ədəbiyyatşünas alimlər Abbas Zamanov və Nadir Vəlixanov tərəfindən tərtib və nəşr edilmişdir.

**Ədəbiyyat / *References***


1. Axundov S.S. Seçilmiş əsərləri. Bakı, Şərq-Qərb, 2005
2. Nəhmətova K.A. “Qaraca qız”ın taleyi. Bakı, Avropa, 2016
3. Vəlixanov N. Görkəmli yazıçı, ictimai xadim. Bakı, Elm, 1976;
4. Vəlixanov N. Süleyman Sani Axundov. Bakı, Gənclik, 1968;
5. Vəlixanov N. Süleyman Sani Axundov. Elmi bioqrafiya. Bakı, Elm, 1996
6. Vəliyev M. Süleyman Sani Axundov. Bakı, Uşaqgəncnəşr, 1956


## Драматургия Сулеймана Сани Ахундова

**Айгюн Багирлы**

**Резюме:** Профессиональное творчество Сулеймана Сани Ахундова, если не считать его первые литературные опыты, началось с драматургии. Две основные линии формируют лейтмотив его драматургии. Лейтмотив его драматургии основывается на двух основных линиях. Первое заключалось в изображении и критике невежества, грубости и безграмотности, а второе — в противопоставлении двух различных идеологий, различных формаций, прошлого и настоящего, в трагедии столкновения поколений, «отцов и сыновей». Автор в своих пьесах, таких как «Дибдат бек» (1906), «Тюркский союз» (1906), «Из мрака к свету» (1921), «Соколиное гнездо» (1921), «Шайтан» (1922), «Молла Насреддин в Баку» (1921), «Любовь и месть» (1922), «Новая жизнь» (1923), «Шахсенем и Гюльпери» (1921), «Колесо фортуны» (1921), «Две дороги» (1922), «Последствие одной любви» (1922), «Клуб правдолюбов» (1923) боролся с невежеством и отсталостью, отражая проблемы своего времени, отношение современников к науке, образованию и прогрессу.
**Ключевые слова:** Сулеймана Сани Ахундов, драматургия, драматический жанр, просветительский реализм